# Naibə Allahverdiyeva:
# “Hazırda yaradıcılığımın depressiya dövrünü yaşayıram”



■ Xəyalə Rəis
*teatrşünas*

Aktyorluq sənəti elə bir aləmdir ki, hər adam buradan baş çıxara bilmir. Tamaşaçılar qarşısında sözünü demək üçün illərlə öz üzərində çalışmalı, möhürünü qoymalısan. Elə müsahibimiz Əməkdar artist Naibə Allahverdiyeva kimi. N.Allahverdiyeva teatr səhnəsində, eləcə də tele-tamaşalarda, filmlərdə biri-birindən maraqlı obrazları ilə yaddaşlara həkk olunub. Aktrisa “Bala bəla sözündəndir” (Ə.Əmirli) tamaşasında Bibi, “Səsin sehri” (T.Kazımov) tamaşasında Səfurə, “Mağara” (A.Həsənzadə) tamaşasında Xatun, “Dədəm Qorqud” (Ə.Dəmirçizadə) tamaşasında Burla Xatun, “Mənim ağ göyərçinim” (T.Vəliyeva) tamaşasında Münəvvər, “Çimnaz xanım yuxudadır” (S.Rüstəm) tamaşasında Çimnaz, “Pəri cadu” tamaşasında Şamama kimi obrazları ilə tamaşaçıların sevimlisinə çevrilib. O, bir kino aktrisası kimi də bir sıra filmlərdə də rol alıb. “Qara Volqa” filmində Rita, “Məhəbbətin hökmü” filmində Cevriyyə rolları aktrisaya tamaşaçı rəğbəti qazandırıb.



Prezident Mükafatçısı olan Naibə Allahverdiyeva bizimlə söhbətində depressiyada olduğunu bildirdi. Günəşli Nevroloji Sanatoriyasında müalicə alan əməkdar artist pessimizmə qapılaraq həyatdan küsüb.

Biz də vəziyyətdən xəbərsiz olduğumuz üçün suala serialdakı obrazının birdən birə ləğv olunması ilə başladıq.

**- Naibə xanım, sizin “Qardaşlar” serialındakı rolunuzun ssenaridən çıxarıldığını eşitdik. Deyilənlərə görə, səhhətinizlə bağlı problemlər var.**

- Vəziyyətim o qədər də pis deyil-di. Sadəcə mənim serialdakı Natella rolum üçün belə məsləhət görüldü. Mənə deyildi ki, həmin obraz serialdan çıxarılıb. Halbuki, mən Natella obrazının öhdəsindən peşəkarlıqla gəlirdim, obraz da tamaşaçılar tərəfindən müsbət qarşılanmışdı və kifayət qədər də sevilirdi. Çox zaman məndən bu rolun nə üçün serialdan getdiyini soruşurlar. Tamaşaçılarımın əksəriyyəti həmin seriala məhz Natella obrazına görə baxdıqlarını da deyirdilər. Burada nə ssenaristin, nə də rejissorun günahı var. Heç özüm də bilmirəm, nə üçün mənim o obrazımı serialdan çıxartdılar.

**- Hazırda nə işlə məşğulsunuz?**

- Nail Naiboğlunun çəkdiyi “Pasport” filmində qonşu qadın obrazını canlandırmışam. Bu film çox gözəl ideyası olan, maraqlı bir filmdir.

**- Sizin yerli seriallarımıza qarşı fikriniz hər zaman dəyişməzdir.**

- Elədir. Çəkilən serialları çox zaman qəbul etmirəm. Çünki əksər seriallarımız keyfiyyət baxımından məni qane etmir. Bəzən serialda gözəl və peşəkar aktyorlarımızı görürəm. Onları ekranda görəndə çox sevinirəm. Ancaq həmin aktyorlarla bərabər qeyri-peşəkar aktyorlar rol alır, serial da adiləşir və primitiv alınır. Seriallarda ləhcə, məişət dili, çəkiliş sistemi onları çox aşağı səviyyəyə salır. Sözün açığı, filmlərə çəkilməyə o qədər də həvəsim yoxdur. Başa düşə bilmirəm, Azərbaycanda o qədər gözəl rejissorlarımız olduğu halda, bəzi serial çəkən rejissorlar bu aləmə necə gəlib çıxırlar? Biz əvvəllər bir-birindən maraqlı televiziya tamaşalarında iştirak edirdik. Əvvəlki rejissorlar hara getdilər? Niyə onları bu sahədən uzaqlaşdırdılar ki, toy çəkənlər, heç nə bacarmayan, əlinə kamera alıb özünə rejissor deyənlər indi serial çəkirlər. Ona görə də seriallarımızın keyfiyyəti bu gün çox aşağıdır. Sizə açıq deyəcəm - hazırda yaradıcılığımın depressiya dövrünü yaşayıram.

**- Buna səbəb nədir?**

- Mən belə düşünürəm (sükut). Axı necə olmalıdır? 30 ilə yaxındır ki, səhnədəyəm. Özünü tərifləmək olmasın, xalq tərəfindən qəbul olunmuş aktrisalardan biriyəm. Hesab edirəm ki, sənətdə kifayət qədər sözümü demişəm. Bunu mən özümə demirəm, bu, mənə insanlar tərəfindən deyilir. Tamaşaçılar mənə deyir ki, sizin kimi sənətkarlarımızdan çox az qalıb. Əgər bu gün məndən tam şəkildə istifadə olunmursa, mən necə olmalıyam? Mənim də yaşım ötür, dövranım keçir... Mənim kimi aktrisadan istifadə olunmursa, deməli bu ölkədə ya rejissor yoxdur, ya da mən öz depressiya dövrümü yaşayıram. Bu, mənə qarşı edilən haqsızlıqdır. İndi mənim elə dövrümdür ki, gərək bir dəqiqə belə vaxtım olmasın. Mən dünən efirə gələn qeyri-peşəkar aktrisa deyiləm. Peşəkar cəhətdən yetişmiş aktrisayam. Mənim xarici görkəmim efir üçün heç nəyə mane olmur. İnanırsınızmı ki, hər dəfə tamaşalarımdan sonra səhnəyə çıxanda alqışlardan özümü qəribə hiss edirəm. Tamaşaçı alqışından sevildiyimi hiss edirəm. Əgər insanlara lazımamsa, nə üçün filmlərə çəkilməməliyəm? Niyə, mən insanlara lazım deyiləm?

**- Sizinlə razıyam. Gərəkdir ki, sənətkara vaxtında qiymət verilsin.**

- Əlbəttə ki... Dünyamı dəyişəndən sonra heç kim mənim qəbrimin üstə gəlməsin. Əgər sağ vaxtımda mənə dəyər vermirlərsə, öləndən sonra heç verməsələr yaxşıdır.

**- Pessimistə qapılmayaq, gəlin teatrdan danışaq. Naibə xanım üçün səhnə nə deməkdir?**

- Səhnə mənim üçün həyat deməkdir. Özümü səhnəsiz təsəvvür edə bilmirəm. Səhnə mənim həyatımı qurban verdiyim bir sənətdir. Mən bilsəydim ki, taleyim belə olacaq, vallah, heç vaxt bu sənətə gəlməzdim. Düzdür, sənətimi sevirəm, ancaq belə bir cəmiyyətdə yox. Bəlkə də başqa bir sənətə üz tutardım. Mən bilmədim ki, bu sənət axırda məni nevroz xəstəliyinə salacaq.

**- Tamaşaçı sevgisini qazanmaq da hər sənətkara qismət olmur.**

- Mən tamaşaçıların sevgisini hiss edirəm. Tamaşaçılarımdan da heç bir narazılığım yoxdur. Hazırda Günəşli Nevroloji Sanatoriyasında yatıram. Burada həkimlərin, pasientlərin mənə qarşı olan məhəbbətini görürəm. Mənə qarşı o qədər hörmət var ki, özümü qəribə hiss edirəm. Demək ki, bu hörməti mən qazanmışam. Nəyə görə mənə qarşı bu qədər haqsızlıqlar olur? Axı mən onlara nə etmişəm (ağlayır)?

**- Deyirlər, dost dar gündə tanınır. Bu günümüzdə hansı dostunuz sizinlə əlaqə saxlayır?**

- İndi insanın öz doğmaları adama ögey münasibət göstərirlər, qaldı ki, sənət dostları. İndi yaxın adamlar insana namərd çıxırlar. Həyatda heç kimdən heç nə ummuram. Heç çox adam bilmir ki, mən bu sanatoriyada müalicə alıram.

**- Bəs sizi yenidən nə zaman teatrda görəcəyik?**

- Mən köhnə tamaşalarımda iştirak edirəm. Hələ də obrazlarımı canlandırıram. Ümumiyyətlə, insanların



ürəyinə girməyi bacarmışam. 100 il də efirə çıxmasam, öz tamaşaçılarım məni heç vaxt unutmayacaq. Buna görə mən onlara minnətdaram.

**- Siz “Süreyya” filmindəki südçü qız obrazı ilə yaddaşımıza həkk olunmusunuz. O gündən bu günə nələr dəyişib?**

- (gülür) O mənim ilk canlandırdığım obrazdır. O gündən bu günə çox şey dəyişib. Bir sözlə, həyatım dəyişib. Mənim üçün hər şey... Dəyişib deyəndə ki, mənim bəxtim-taleyim əvvəldən necə idisə, indi də elədir. Ötən gün “Facebook” sosial şəbəkəsində biri həmin filmdəki şəklimi paylaşmışdı. Filmdə elə fikirli dayanmışam ki, baxan deyər ki, Allah-tala bütün dərd-qəmi bu qıza verib. O qədər həsrət və kədərli baxmışam ki. İndi də həmin baxışlar məndə qalıb. Deməli, bu həyatın qismətidir.

**- Taleyinizdən gileylənirsiniz?**

- Taleyimdən narazı deyiləm. Biri var kiməsə nəyisə boşqabda hazır şəkildə təqdim edəsən. Biri də var ki, sən o səviyyəyə əziyyətlə, addım-addım, qram-qram gəlib çatasan. Artıq əziyyətlər də insanı bezdirir. Biri var sən buna layiqsən, bu səndən alınır, sənə verilmir, bir də var ki, buna heç layiq olmayanda gətirib təqdim edirlər. Sən də kənardan baxırsan, bu haqsızlığı qəbul edə bilmirsən. İstənilən halda bu günümüzə şükür! Allah bu günümüzü bizə çox görməsin. Mən naşükür adam deyiləm. Allah tamaşaçılarımın məhəbbətini məndən almasın. Çünki həyatda ondan başqa heç nəyim yoxdur.

**- Sevdiyiniz rolların sırasını ilk olaraq hansı obrazdan başlayarsınız?**

- Təbii ki, tamaşaçılar məni birinci dəfə hansı obrazda seviblərsə, o obrazdan başlayardım. Yəqin ki, Tomkadan başlayardım. Ən sonda isə “Pəri Cadu” tamaşasındakı Şamama obrazını yazardım. Çox zaman deyirlər ki, siz yaddaşlarda Tomka obrazı ilə qalmısınız. Bu mənə çox ağır gəlir. Çünki mən təkcə Tomka obrazını yaratmamışam. Mənim bir-birindən maraqlı obrazlarım var. Ancaq özümə təsəlli verirəm ki, bu bütün dünyada belədir. Dünyanın məşhur aktyorları daha çox bir obrazı ilə yaddaşlara həkk olunur.

**Qeyd:** *Aktyorluq sənətinin insanları hər zaman incə qəlbli olublar. Onları sevindirmək və kədərləndirmək çox asandır. Əziz oxucular, ona görə də çalışaq ki, sənətkarlara zamanında qiymət verək.*



